# Pedaqoji-psixoloji ədəbiyyatda natamam ailə və məktəb

**Pərvanə Hüseynova**
*fəlsəfə doktoru hazırlığı üzrə dissertant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** parvana.huseynova88@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. H.Ə. Əlizadə,
ped.ü.e.d., prof. L.N. Qasımova

**Açar sözlər:** natamam ailə, tərbiyə problemləri, nuklear ailə, uşaqlarla sosial iş
**Ключевые слова:** неполная семья, проблемы образования, ядровое семейство, социальная работа с детьми
**Key words:** incomplete family, education problems, nucleus family, social work with children

Məktəbin uğurları həmişə şagirdlərin ailə vəziyyəti ilə bağlı olub. Hətta, ailələr tam olduqda belə, uşağın sosial inkişaf şəraitini təmin edən bu kiçik insan qrupunda problemlər ola bilər. Müxtəlif xarakterli bu problemlər isə öz nəticəsini uşağın təhsilində göstərir. Bu təsirin ləngidici xüsusiyyətlərinin aradan qaldırılması müəllimlərin valideynlərlə apardığı pedaqoji işin müstəsna əhəmiyyəti vardır. Ona görə də müəllim-ailə əlaqələrinin yaxşı, keyfiyyətli olması uşağın təhsil uğurlarının da əsas şərtlərindən biri sayılır. Bu kimi məsələlərlə bağlıdır ki, Ə.Ə. Əlizadə və N.A. Abbasov şəxsiyyətin ahəngdar inkişafının əsas şərti olan ailədən bəhs edərkən öz fikirlərini aşağıdakı kimi şərh edirlər. “Ailə ictimai-tarixi hadisədir. Cəmiyyət dəyişdikcə o da inkişaf edir və yeni xüsusiyyətlər kəsb edir. Bu baxımdan müasir dövrdə ailədə baş verən demoqrafik dəyişmələri aydınlaşdırmaq lazımdır” [1].

Aydın məsələdir ki, uşağın psixoloji və sosial baxımdan sağlam böyüməsinin birinci amili ata və anadır. “Övlad tərbiyə etmək böyük, ciddi və məsuliyyətli işdir. Bu işin öhdəsindən ləyaqətlə gəlməkdən ötrü həm ana, həm də ata öz fikrini, diqqət və iradəsini bir an da olsun bu sahədən əskik etməməlidir. Ailə başçılarının öz valideynlərinin vəzifəsini bütün məsuliyyətilə daim hiss etmələri və onu fəal surətdə yerinə yetirmələri ailə tərbiyəsində müvəffəqiyyətin rəhnidir Elə problemlər də vardır ki, onlar, ümumiyyətlə, uşağın ailədəki tərbiyə mühitini köklü şəkildə dəyişdirir. Tərbiyə mühitinin özündə harmoniya pozulur, çatışmazlıqlar əmələ gəlir, yəni övlad valideynlərindən birini itirir. Bu hadisə onun tərbiyəsinə, təhsilinə, bir sözlə, ətraf mühitin təsirlərinə münasibətini köklü şəkildə dəyişdirir, hətta, bir sıra psixoloji-fizioloji problemlər yaradır. Çünki psixi pozuntular həm sosial, həm də bioloji komponentlərlə əlaqəyə girərək bütövlükdə tələbatları, meylləri, maraqları, davranışı dəyişə bilir. Nəticədə uşaq özünü nəinki məktəbdə, ailədə də tənha hiss edir. Özünə qapılaraq dərdini heç kimlə bölüşmək istəmir.

Valideyn daha çox ailənin maddi təminatı ilə məşğul olduğundan uşaqların istək və arzularından, maraqlarından xəbərsiz olur. Məktəbdə də nəzarətdən kənarda qalması onun təhsildən soyuması, bəzən də məktəbə getməkdən imtina etməsi ilə nəticələnir.

Müşahidələr göstərir ki, bu vəziyyət illərlə davam edirsə, bəzi uşaqlar, yeniyetmələr və gənclər gözlənilmədən ailədən uzaqlaşmağa, dostlarına daha böyük əhəmiyyət verməyə, özlərini qismən müstəqil şəxsiyyət kimi aparmağa çalışır, tamamilə fərqli həyat tərzi sürməyə

meyl edirlər. Gündən-günə artan müstəqillik meyli valideynlər və müəllimlər üçün çətinliklər törədir. Xüsusən də yeniyetmələr bir sıra hallarda belə vəziyyətdə onları "başa düşən" insanları axtararaq ailədənkənar, məktəbdənkənar mühitə-küçəyə uz tuturlar. Burada davranışı pozulmuş insanlarla rastlaşdıqda onlar kimi özbaşına, məqsədsiz, ifrat, müstəqil hərəkətlər edirlər. Nəticəsi isə çox zaman faciə ilə başa çatır: cinayət, narkomaniya, əxlaqsızlıq və s.

A.S. Makarenko, V.A. Suxomlinski, Ə.Ə. Əlizadə, İ.İ. Vəlixanlı, Z.İ. Qaralov, D.A. Dəmirli, A.N. Abbasov, H.Ə. Əlizadə, R.İ.Əliyev, P.B. Əliyev və başqaları tərbiyənin ümumi məsələləri ilə yanaşı demoqrafik problemlərlə üzləşmiş: valideynlərini itirərək yetim qalmış, natamam, ailələrdən olan şagirdlərin inkişaf və tərbiyəsi məsələlərinin izahını verərək bu sahədə istər valideynin, istər müəllimin, istərsə də şagirdlərin öhdəsinə düşən vəzifələri aydınlaşdırırlar.

Ailə uşağın inkişafında ilkin amildir, lakin hər şey demək deyildir. Uşağın inkişafı üçün ailənin özündə belə bir sıra şərtlər olmalıdır. Z.İ. Qaralova görə, insanı "tərbiyələndirmək-insanın formalaşması istiqamətində gedən arasıkəsilməz prosesdir. İnsan dünyaya göz açdığı ilk gündən ömrünün son gününə qədər həmin prosesin təsiri altında olur. Prosesdə iki qrup qüvvə: kənar və daxililər iştirak edir. Kənar və daxili qüvvələrin qarşılıqlı təsiri insanın təfəkkürünü, nəfsini, daxili və xarici nitqini, düşüncə tərzini, dünyabaxışını, mənəviyyatını, davranışını formalaşdırır.

Valideynlər, qohum-əqrəba, məktəb kollektivi, təlim-tərbiyənin məzmunu və formaları, vasitə və metodları insanın formalaşmasına, onun inkişafına təsir edən xarici qüvvələrə aiddir. Xarici qüvvələrin və ya amillərin insana təsiri onun daxili aləmini zənginləşdirə və ya zəiflədə bilər" [4].

Ailə həmişə bütöv, mükəmməl olmur. Bu və digər demoqrafik səbəblər üzündən onun bünövrəsi dağılır, ailə parçalanır. Ata, ana ya fiziki, ya da mənəvi baxımdan ayrılırlar – ailə natamam olur. D.A. Dəmirli müasir cəmiyyətdə boşanma problemlərindən danışarkən onun səbəblərini, nəticələrini araşdırır: "İnsanların hər iki cinsini qoşa yaradan təbiət qadın və kişini bir-birinə həyan etmişdir. Boşananlar, ailə münaqişələrinə tab gətirməyənlər bir çox bəlalara düçar olur, bəzən də dünya ilə vaxtından əvvəl vidalaşırlar [2].

Azərbaycanın sosial pedaqogikasında aparılan müasir tədqiqatlar arasında ailələrin demoqrafik problemləri, belə ailələrdən olan şagirdlərlə pedaqoji işin xüsusiyyətləri məsələləri getdikcə aktuallaşmaqdadır. Bu sahədə Əlizadənin araşdırmaları diqqəti xüsusilə cəlb edir. "Tərbiyənin demoqrafik problemləri" əsərində H. Əlizadə, ilk növbədə "demoqrafiya" elminin mahiyyətini izah edərək bunu zəmanənin qlobal demoqrafik problemləri olan: boşanma, ölüm, doğum, təkrar nikah, miqrasiya və s. amillərlə əlaqələndirir. "Natamam ailə isə xalis demoqrafik hadisədir. Demoqrafik ölçülərə görə, ailənin nüvəsini ər-arvad təşkil edir. Ailənin bu qoşa qanadından biri qırılanda ailə tam ailədən natamam ailəyə çevrilir. Natamam ailə əksər hallarda boşanma və ölüm nəticəsində yaranır" [3].

Əlizadə uşağın yetim qalmasını "demoqrafik təsir" adlandıraraq bu amilin tərbiyəyə zərərli təsirinin qarşısını almaq üçün yollar göstərir. "Yetim, valideynləri boşanmış, oğulluğa, qızlığa götürülmüş uşaqlar eldə, obada, yetim evində, məktəbdə özünəməxsus status kəsb edir, köklü psixoloji xüsusiyyətlərlə özlərinin həmyaşıdlarından seçilirlər. O, bu sahədəki çatışmazlıqları onda görür ki, şagird şəxsiyyətinin formalaşmasında neqativ demoqrafik təsirlər psixologiyada və pedaqogikada nisbətən ətraflı öyrənilsə də, hələ sistemli qayda da araşdırılmayıb.

Sağlam insanın tələbatları, motivasiyası, maraq və qabiliyyətləri, əxlaqi-mənəvi keyfiyyətləri və davranışı əlaqə zəminində inkişaf edir. Maddi tələbatlardan yeni məzmunlu

mədəni tələbatlar yaranır. Sosial motivlərin diferensiallaşması, ilk növbədə özünü təlim motivlərində göstərir. Hər hansı səbəbdən, o cümlədən valideyn itkisinin təsiri ilə psixi ləngimə zamanı şəxsiyyətin inkişafı təbii axarını bir qədər dəyişir. Dərketmə proseslərinin müxtəlif ləngimələri şəxsiyyətdə də yayınma əlamətləri yaradır. Natamam ailələrdən olan uşaqlarda şəxsiyyətin ləngiməsi özünü daha çox təəssüratlar aləmində, əxlaqında mənəviyyatında göstərir. Onlar ya həddən çox utancaq, çəkingən, ya da həya hissindən uzaq olurlar. “Yetimin üzü bərk olar”, — deyib atalar. Bu yəqin ki, mühitin onlara qarşı ədalətsiz münasibindən yaranır.

Ailədə uşağın hərəkətləri ilə bağlı olaraq bu hallara oxşar situasiya yaranarsa, ilk növbədə, valideynlər müəllimlərdən, yaxud məktəb psixoloqundan kömək istəməlidir. Ona görə də bu problemlə bağlı natamam ailə başçısının maarifləndirilməsi işi genişləndirilməlidir. Apardığımız bu tədqiqat da məktəbdə müəllimlərin natamam ailələrdən olan şagirdlərlə aparmalı olduqları işin xüsusiyyətlərini öyrənərək onun təşkili xüsusiyyətlərini öyrənərək onun təşkili sistemini işləyib hazırlamaq məqsədi daşıyır.

Digər tərəfdən, müasir dövrdə valideynlər üçün natamam ailədə uşaq böyütmək çətin olduğu kimi, belə ailədə yaşayan uşaqlar üçün də normal böyümək asan deyildir. Məlum olduğu kimi, məktəb və ailə şagirdlərinin davranış modellərinin formalaşdığı ilk sosial quruplardır. Hələ uşaqlıqdan ailədə bünövrəsi qurulmuş müstəqil, sağlam həyat tərzi müəyyən davranış modelləri, motivasiya, məşğuliyyət, ustanovka və s. ilə bilavasitə bağlı olur. Bu baxımdan, məktəb, müəllim natamam ailələrdən olan şagirdlərin özünüinkişaf və özünütərbiyə məsələlərində valideynlərlə əməkdaşlıq etməlidirlər. Onlardan hər uşağın (şagirdin) tərbiyəsi və təhsili ilə bağlı biri digərinin verdiyi informasiyanı zənginləşdirməli və inkişaf etdirməlidir. Bu əməkdaşlıq ailədəki mənəvi mühiti şagirdlərin sosial maraqlarını: əməyə, təhsilə, münasibətini sabitləşdirməyə, pozitiv istiqamətə yönəltməyə və əksinə, yüngül həyat tərzinə olan meyllərdən (narkotik maddələrə, spirtli içkilərə və s.) uzaqlaşmasına kömək göstərməlidir.

L.Ş. Əmrahlıya görə uşaq özünün sosial, iqtisadi, dini, cinsi, fiziki səviyyəsində qeyri-münasibliyin olması qənaətinə gəldiyi zaman səriştəsizlik hissi yarana bilir. Onun motivasiyası, bilik səviyyəsi şəxsiyyətin mahiyyətinə, ləyaqətinə göstərilən səviyyədə təsir göstərə bilmir. Natamamlıq və səriştəsizlik hissi yaşayan uşaqda özünəinam hissi itir, güman edir ki, heç vaxt səmərəli fəaliyyət göstərə bilməz. Assosial hisslərə malik olan uşaq özünü yüksək qiymətləndirməyə meyillidir. O, yaşlıların özünə qarşı qayğıkeşliyini, həssaslığını yaşıdların isə özünə qarşı güzəştli mövqe tutmalarını qiymətləndirmədə əsas şərt götürür. Bu onu göstərir ki, bəzi kiçik məktəb yaşlı uşaqlar bəzən özünə, öz hərəkətlərinə kifayət qədər tənqidi yanaşa bilmir, müqayisə etmir və nəticə çıxarmır (6).

Apardığımız təhlil göstərir ki, natamam ailədən olan uşaqların daxili dünyası, maraqları, ünsiyyəti, təhsilə münasibəti yaşıdlarından fərqlənir. Belə aiələrin qismən məhdud ünsiyyət dairəsi var. Natamam ailədə böyüdüklərindən onların ailə və cəmiyyət haqqındakı təsəvvürləri də bir qədər məhduddur. Uşaqların insanlarla münasibətləri də özünəməxsus problemlərlə şərtlənir. Uşaqlar tam ailənin xüsusiyyətlərindən fərqlənən münasibətlər sistemində böyüyürlər. Bütöv ailə haqqındakı təsəvvürləri uşaqlar başqalarının nümunəsində, yaxud nənə-babaların, qohum-əqrəbanın və başqa söz-söhbətlərindən öyrənirlər. Ata ölmüşdürsə - ata, ana ölmüşdürsə - ana obrazı onlar üçün xəyali təsəvvürlər əsasında yaranır. Xüsusilə şəhid övladlarının Vətən, ailə obrazları dumanlı və kədərli olur.

Ailədə və sosial mühitdəki bir sıra təsirlər natamam ailədən olan uşaqların maraqlarının inkişafına mənfi təsir göstərir. Bütün bunlar nəzərə alınaraq məktəbdə müntəzəm olaraq

natamam ailədə olan şagirdlərin psixi inkişaf xüsusiyyətlərinin öyrənilməsinə diqqət yetirilməlidir. Bu zəmində onlara fərdi yanaşmanın təmin olunması vacibdir. Şagirdlər psixoloji-pedoqoji cəhətdən onlara səmərəli təsir göstərə biləcək fəaliyyətə hazırlanmalı, hər birinin ailə problemlərinə, cinsi və fərdi xüsusiyyətlərinə, sosial-inkişaf səviyyəsinə uyğun profilaktik, korreksiya və konsultativ iş aparılmalıdır.

**Məqalənin aktuallığı.** Natamam ailənin pedoqoji problemləri ərin və arvadın təklənməsi ilə bağlı olaraq yaranır və problemlər də bu zəmində meydana çıxır. Bu mühitdə böyüyən şagirdlərlə məktəbdə aparılmalı olan iş sisteminin müəyyənləşdirilməsini məqalənin aktuallığı hesab etmək olar.

**Məqalənin elmi yeniliyi**. Elmi yenilik ondan ibarətdir ki, tədqiqat işində müşahidə, pedaqoji eksperiment, anketləşdirmə metodlarından istifadə olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N. Əlizadə H.Ə Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Renessans, 2000.
2. Dəmirli D. Bizə hər şeyin dəxli var. Bakı: ADN, 1987.
3. Əlizadə H.Ə Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1993.
4. Qaralov Z.İ. Tərbiyə. 1 hissə. Bakı: Pedaqogika, 2003.
5. L.Ş.Əmrahlı Psixoloji xidmətin əsasları. Bakı: MBM, 2006.
6. Muradxanov M. Uşaqların tərbiyəsində ailə mühüm ocaqdır. Bakı: Azərtədrisnəşr, 1961.

**П. Гусейнова**

## Неполная семья и школа в педагогическая психологическая литература

## Резюме

Педагогические проблемы в семье возникают тогда, когда в ней отсутствует или отец или мать. Основная цель исследования заключается в том, чтобы разработать систему работы для школьников, которые воспитываются в таких семьях.

**P. Huseynova**

## Incomplete family and school in pedagogical psychological literature

## Summary

Pedagogical problems in the family arise when there is no father or mother in it. The main goal of the research is to develop a system of work for schoolchildren who are brought up in such families.

**Redaksiyaya daxil olub:** 05.02.2018